Ədalət 2019.- 17 sentyabr.- S.4.

# ÜZÜ GÜNƏŞƏ DOĞRU

**Təhsili, elmi və tədrisi önə çəkən millətin həmişə axırı işığa, nura qovuşmaq olub. Yəni o millətin ki, həyatında elmə və təhsilə önəm verilir, həmişə o xalqın inkişafı, tərəqqisi müxtəlif formada özünü göstərir. Təbii ki, bizim məmləkətimizdə də təhsilə, elmə çox böyük önəm verilir. İstər Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə, istərsə də prezident İlham Əliyevin fəaliyyəti illərində təhsil ölkənin prioritet sahəsi kimi diqqət mərkəzində saxlanılıb. Ən azından ona görə ki, son 10 ildə ölkəmizdə yüzlərlə yeni ümumtəhsil məktəbləri dünya səviyyəsində tikilərək müəllimlərin və şagirdlərin istifadəsinə verilib. Bir o qədər də təhsil ocağı əsaslı surətdə yenidən təmir edilib.**

Həmişə ölkəmizdə yeni təhsil ili sentyabrın 15-də başlayıb. Bu il isə sentyabrın 15-i bazar gününə düşdüyünə görə, respublikamızda yeni dərs ilinə sentyabrın 16-dan start verilib. Həm də yeni dərs ilinin başlanğıcı "Bilik günü" kimi tarixə düşüb. Bu gün həm də ona görə əlamətdardır ki, məmləkətimizdə minlərlə 1-ci sinif şagirdi ilk dəfə məktəbə qədəm qoyub.

Hər il yeni tədris ilinin başlanması və eləcə də "son zəng" Bakının Sabunçu rayonundakı 271 nömrəli tam orta məktəbdə də çox möhtəşəm keçirilir. Çünki bu təhsil ocağı nümunəvi məktəblərdən biri sayılır. 2018-2019-cu dərs ilində bu məktəbi 103 məzun bitirib. Onlardan 96-sı sənədlərini ali məktəbə təqdim edib. Qəbul imtahanlarından 73 nəfər məzun yüksək bal toplayaraq müxtəlif ali məktəblərin tələbəsi adını qazanıb. Daha doğrusu, onların 68-i respublikanın ali məktəblərinə, 5-i isə xarici ölkələrin ali təhsil ocaqlarına daxil olublar. Bu tədris ilində "Gənc kimyaçılar"ın müsabiqəsində məktbin şagirdləri Pəri Əliyeva, İlahə Əhmədova, Fərid Məmmədzadə komanda şəklində 3-cü yeri tutub. Ən sevindirici fakt odur ki, məktəbin 5 nəfər məzunu 600-dən yuxarı bal toplayaraq tələbə adını qazanıb. Bu da Sabunçu rayonu üzrə ali məktəblərə qəbulda 2-ci yer deməkdir. Məzunlardan Pəri Əliyeva 671 bal toplayaraq Tibb Universitetinə, Leyla Qədirli 624 bal toplayaraq Xarici Dillər Universitetinə, Səbinə Musayeva 623 bal yığaraq Xarici Dillər Universitetinə, Radil Qurbanov 621 bal toplayaraq Azərbaycan Neft və Sənaye Universitetinə, Nərgiz İbrahimova 608 bal əldə edərək Bakı Neft Mühəndisliyi Universitetinə daxil olublar.

Bu il məktəb yeni tədris ilinə daha yüksək səviyyədə hazırlaşıb. Belə ki, ən müasir texnika və texnologiyadan istifadə edilməklə şagirdlər elmi biliklərə yiyələnəcəklər. Laboratoriyaların və fənn kabinələrinin yeni texnologiya ilə təchiz edilməsi tədrisin keyfiyyətinin yüksəldilməsində önəmli rol oynayacaq.

Bir faktı da qeyd edək ki, məktəbin təhsil sahəsində uğurların əldə edilməsində direktor müavini Vüsalə Əlizadənin xidmətləri əvəzsizdir. Bu ziyalı xanım həmişə ənənələrə sadiq qalmaqla çalışdığı məktəbə yeniliklər gətirməyi də bacarıb.

Onu da xatırladaq ki, məktəbdə Fövqəladə Hallar Nazirliyinin qüvvəsilə yeni siqnalizasiya sistemi yaradılıb, su anbarı hazır vəziyyətə gətirilib. Bununla yanaşı, məktəbin elektrik şəbəkəsi yenidən qurulub. Bu işdə məktəbin təsərrüfat işləri üzrə direktor müavini Mətanət İbrahimovanın adı xüsusilə çəkilməlidir.

Əlbəttə, öncə onu demək lazımdır ki, bu il ilk dəfə məktəbə qədəm basacaq birincilər üçün təhsil ocağında hər cür şərait yaradılıb. Yeni sinif otaqları müasir avadanlıqlarla təchiz edilib və məktəbdə səliqə-səhman yaradılıb. Təhsildə ən başlıca vəzifələrdən biri yüksək nizam-intizam və kollektivdə yaradılmış sağlam mühitdir. Birmənalı şəkildə deyə bilərik ki, böyük ziyalı, təcrübəli pedaqoq və yaradıcı insan olan məktəbin direktoru Səməndər Məmmədov bu vəzifənin öhdəsindən layiqincə gəlib. Elə bir təhsil ili olmayıb ki, 271 nömrəli tam orta məktəbdə böyük uğurlar əldə edilməsin. Təbii ki, bu da tədrisin, təlimin və nizam-intizamın yüksək səviyyədə olmasına dəlalət edir. Elə bunun nəticəsidir ki, məktəbin direktoru Səməndər Eyvaz oğlu Məmmədov prezident İlham Əliyevin sərəncamı ilə "Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalı ilə təltif olunub. Əlbəttə, hər bir mükafat insanı daha yüksək uğurlar əldə etməyə səsləyir. Və Səməndər Məmmədov da heç vaxt qazandığı uğurlarla arxayınlaşmayıb, daha böyük işlər görmək barəsində düşünüb və həmişə də buna nail olub.



Məktəbdə bayaq dedik ki, sağlam mühit, sağlam abhava var. Bunu tək biz demirik, bunu həm də o məktəbdə övladları təhsil alan çoxlu sayda valideynlər deyirlər. Onlar deyirlər ki, biz 271 nömrəli tam orta məktəbin direktorundan və müəllimlərindən çox razıyıq. Çünki bu məktəb bizim övladlarımızı tərbiyəli böyüdür, vətənpərvərlik ruhunda yetişdirir. Hər il məktəbi bitirən şagirdlərin 80 faizə yaxını müxtəlif ali məktəblərə qəbul olurlar.

Təhsildəki uğurların əldə edilməsində məktəblərin müəllimlərindən Vahidə Məmmədova, Sənubər Səfərova, Nazilə Hüseynova, Kəmalə Əzizova, Səhrayə Kazımova, Yeganə Rüstəmova, Afaq Mirzəyeva, Səlbinaz Babayeva, Kəmalə Səfərova, Mətanət Rüstəmova daim fərqləniblər. "Bilik günü"ndə Sabunçu rayonundakı 271 nömrəli tam orta məktəbdə direktor Səməndər Məmmədov çıxış edərək yeni tədris ili münasibəti ilə müəllimləri və şagirdləri təbrik etdi. O dedi ki, hər il olduğu kimi, bu il də məktəbimizə çoxlu sayda birincilər qəbul olub. Mən onları xüsusilə təbrik edirəm, təhsildə, tədrisdə və fəaliyyətlərində uğurlar arzulayıram.

Valideynlər ürəklərini buz kimi saxlaya bilərlər. Burda biz bütün şagirdlərə öz balalarımız kimi baxır, onların təlim-tərbiyəsini, davranışını bir an da diqqətdən qaçıqmırıq. Amma onu da deyim ki, məktəbimizdə çox ciddi nizam-intizam var. Bu nizam-intizama həm müəllimlər əməl etməyə borcludu, həm də şagirdlər. Direktor olaraq nə müəllimin haqqını şagirdə, nə şagirdin haqqını müəllimə verməmişəm. Həmişə çalışmışam ki, ədalətli mövqe tutum. Buna isə valideynlər, müəllimlər və şagirdlər daha dəqiq qiymət verərlər.

**Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, valideynlər, ziyalılar iştirak edirdilər. İlk zəng çalınır və bütün şagirdlər öz siniflərinə gedirlər. İlk dərs günü isə 1-cilər üçün daha yaddaqalan olur. Çünki bəzi birincilər ağlayır, ata-anasından əl çəkmək istəmir, bəzisi də heç nə olmayıbmış kimi sinifə gedir. Hər halda, dərs ili bax, beləcə başlayır. Dərs iliniz mübarək!**

**Faiq QİSMƏTOĞLU**